AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT
PEDAQOJİ UNİVERSİTETİ

MƏKTƏBƏQƏDƏR TƏHSİL
FAKÜLTƏSİ

**TƏSDİQ**

**EDİRƏM**

**Fəlsəfə və sosial**

**elmlər kafedrasının**

**müdiri prof.R.A.**

**Əhmədli**

**“12” __fevral__**

**2025-ci il**

# FƏNN SİLLABUSU
## (İşçi tədris proqramı)

**Kafedra:** **Fəlsəfə və sosial elmlər**

**Fakültə:** **Məkbəqədər təhsil.**

**İxtisasın kodu və adı:** **Korreksiyaedici təli**
**Qrup:** **KRT 2401b-2302b,2403b,2404b.**

**I. <u>Fənn haqqında məlumat</u>:**

**Fənnin kodu və adı:** **0104006. *<u>Multikulturalizmə giriş</u>***
**Kredit sayı:** **2**
**Təhsil səviyyəsi:** ***Bakalavr***
**Tədris yükü (saat) cəmi:** **15 saat mühazirə.**
**Tədris ili:** ***2022/2023;*** **Semestr: II** **Bölmə: Azərbaycan**

**II. Müəllim haqqında məlumat: : T.ü.f.d., B/M. Cəfərli Cəfər Südeyüb oğlu.**

**Məsləhət günləri və saatları: V gün saat 14:00-16:00**

**E-mail ünvanı: ceferli_ advocat mail.ru**

**Mobil: 055-811-13-64.**

**İş telefonu: (012) 465 84 71**

III.Tələb olunan dərsliklər və dərs vəsaitləri:

Zəruri ədəbiyyatlar:

1.Azərbaycan multikulturalizmi. Ali məktəblər üçün dərslik. Bakı, 2017
2. Mutikulturalizmə giriş. Ali məktəblər üçün dərslik. Bakı, 2019
3. Azərbaycan multikulturalizmi. Dərslik, Bakı, 2017
4. Abdullayev K.M. Azərbaycanın müstəqilliyi illərində multikulturalizm və tolerantlıq. Bakı, 2016
5. Abdullayev K.M. Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisi kimi ”Azərbaycan” qəzeti, 23.07.2014
6. Multikultural təhlükəsizlik. Bakı, Beynəlxalq Multikulturalizm Mərkəzi, 2015

**Əlavə tövsiyyə olunan ədəbiyyatlar:**

**1.İlham Əliyev. Prezident İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışında iştirak edib..**
**2.İlham Əliyev. Prezident İlham Əliyev V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılışında iştirak edib. 2 may 2019-cu il. https://president.az/articles/33027**
**3. Əlizadə A. Azərbaycanda xristianlıq keçmişdən bu günə. Bakı: “Elm və təhsil”, 2018. s.270-282.**
**4. İlqar Cəfərov. Azərbaycan Resbubilkası Konstitusiyasının şərhi. Hüquq nəşriyyatı -Bakı-2003.**
**5.Freyd Z. Musa və təkallahlılıq. Bakı: Qanun Nəşriyyatı, 2016.**
**6.Hacıyev Z. Fəlsəfə: Ali məktəblər üçün dərslik. Bakı: “Turan evi” nəşriyyatı, 2012.**
**7.Qənbərov A. Dinin sosioloji konsepsiyası ve dindarlığın aspektləri, Dövlət və Din: İctimai Fikir Toplusu, Say: 9 (38), Bakı-2015.**
**8.Qənbərov A. Sekulyarizasiya və Müasir Dünyada Dinin Yeri. Dövlət və Din: İctimai Fikir Toplusu, Say: 3, (32), Bakı-2015.**
**9.Rüstəmov Y. Fəlsəfənin əsasları. Bakı: Nurlar nəşriyyatı, 2007**

**IV.Fənnin təsviri və məqsədi:**

**Fənnin təsviri: Müasir dövrdə dünya dövlətlərinin əksəriyyətində tarixi prosesin inkişafının nəticəsi olan və buna görə də obyektiv xarakter daşıyan etnik, irqi, dini və mədəni müxtəlifliklərin tənzimlənməsinin ən səmərəli siyasət modeli multikulturalizmdir. Multikulturalizm qeyd olunan müxtəlifliklərin tənzimlənməsinə yönələn bir siyasət kimi digər mümkün siyasətlərdən fərqli olaraq milli azlıqların etnik-mədəni dəyərlərini nə**

assimilyasiyaya uğradır, nə də ki, onların bu dəyərlərinin inkişafını cəmiyyətin inkişafından təcrid edir. Multikulturalizm titul etnos ilə milli azlıqların etnik-mədəni dəyərlərinin inkişafına eyni şərait yaratmaqla onların mədəniyyətlərinin qarşılıqlı təsiri üçün zəmin yaradır. Multikulturalizm bir sosial hadisə kimi öz əhəmiyyətinə görə sosial ədalət, imkanların bərabərliyi, demokratiya kimi anlayışların sırasına daxildir. Belə ki, hər bir milli azlığın, azsaylı xalqın, etnik qrupun, dini konfessiyanın hüquq və azadlıqlarının qorunması, onların qanun qarşısında bərabər olmalarının təmin edilməsi həm sosial ədalətin tələblərinə, həm də demokratik cəmiyyətin normalarına uyğun gəlir.

**"Multikulturalizmə giriş" nəzəri və praktiki əhəmiyyətə malik olan bir fəndir. Bu fənn fəlsəfə, tarix, sosiologiya, kulturologiya, hüquq, politologiya kimi ictimai elmlərin bir çox nəzəri müddəalarından istifadə edir.**

**<u>Fənnin hədəf və məqsədi</u>: Kursun əsas məqsədi bakalavr pilləsində təhsil alan tələbələrə multikulturalizmi bir sosial hadisə, ideologiya, siyasət, həyat tərzi kimi təqdim etmək, müasir dövrdə onun əhəmiyyətini göstərmək, dünya dövlətlərinin, o cümlədən Azərbaycanın multikulturalizm sahəsində əldə etdiyi tarixi təcrübəsini tədqiq etmək və tələbələr arasında tolerantlıq ənənələrini möhkəmləndirmək və inkişaf etdirməkdir. Bu məqsədə nail olmaq üçün "Multikulturalizmə giriş" fənninin qarşısında aşağıdakı vəzifələr durur:**

- **"Multikulturalizmə giriş" fənninin predmetini və əhəmiyyətini tələbələrə izah etmək;**
- **Multikulturalizmin mahiyyətini, nəzəri-ideoloji əsaslarını, meydana gəlməsi səbəblərini və tarixi şərtlərini, eləcə də multikulturalizm siyasət modelinin digər mümkün siyasət modellərindən üstünlüklərini tələbələrə çatdırmaq;**
- **Dinin mahiyyətinə və onun meydana gəlməsinə dair nəzəriyyələri tələbələrə təqdim etmək;**
- **Müasir dövrdə etnik-mədəni müxtəlifliyin tənzimlənməsində bir neçə Qərb ölkəsinin təcrübəsi ilə tələbələri tanış etmək;**
- **Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən multikulturalizm siyasətinin əsas istiqamətlərini tələbələrə izah etmək;**
- **Multikulturalizmin Azərbaycan modelinin mahiyyətini, xüsusiyyətlərini və nailiyyətlərini tələbələrə izah etmək.**

**<u>Fənnin qısa məzmunu</u>: Müasir dövrdə dünya dövlətlərinin əksəriyyətində tarixi prosesin inkişafının nəticəsi olan və buna görə də obyektiv xarakter daşıyan etnik, irqi, dini və mədəni müxtəlifliklərin tənzimlənməsinin ən səmərəli siyasət modeli multikulturalizmdir. Multikulturalizm qeyd olunan müxtəlifliklərin tənzimlənməsinə yönələn bir siyasət kimi digər mümkün siyasətlərdən fərqli olaraq milli azlıqların etnik-mədəni dəyərlərini nə assimilyasiyaya uğradır, nə də ki, onların bu dəyərlərinin inkişafını cəmiyyətin inkişafından təcrid edir. Multikulturalizm titul etnos ilə milli azlıqların etnik-mədəni dəyərlərinin inkişafına eyni şərait yarat-**

maqla onların mədəniyyətlərinin qarşılıqlı təsiri üçün zəmin yaradır. Multikulturalizm bir sosial hadisə kimi öz əhəmiyyətinə görə sosial ədalət, imkanların bərabərliyi, demokratiya kimi anlayışların sırasına daxildir. Belə ki, hər bir milli azlığın, azsaylı xalqın, etnik qrupun, dini konfessiyanın hüquq və azadlıqlarının qorunması, onların qanun qarşısında bərabər olmalarının təmin edilməsi həm sosial ədalətin tələblərinə, həm də demokratik cəmiyyətin normalarına uyğun gəlir.

**"Multikulturalizmə giriş" nəzəri və praktiki əhəmiyyətə malik olan bir fəndir. Bu fənn fəlsəfə, tarix, sosiologiya, kulturologiya, hüquq, politologiya kimi ictimai elmlərin bir çox nəzəri müddəalarından istifadə edir.**

**"Multikulturalizmə giriş" fənni ADPU-da bakalavr pilləsində təhsil alan tələbələri üçün 1 semestr ərzində 30 saat olaraq (15 saat mühazirə, 15 saat məşğələ) keçirilməsi planlanmışdır.**

**"Multikulturalizmə giriş" fənninin tədrisi prosesində tələbələr müstəqil olaraq aşağıdakı ümumi kompetensiyalarına (-ÜK) malik olmalıdırlar:**

**ÜK-1- İxtisası üzrə Azərbaycan dilində şifahi və yazılı kommunikasiya bacarıqlarına;**

**ÜK-3-Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi, siyasi, mədəni, ideoloji əsasları və müasir dünyadakı yeri və roluna dair sistemli və hərtərəfli biliklərə, milli dövlətimizin perspektiv inkişafını proqnozlaşdırma qabiliyyətlərinə;**

**ÜK 5- İş yerində informasiya texnologiyalarından istifadə etmək qabiliyyəti;**

**ÜK-6- Komandada iş, problemin həllinə ortaq yanaşmaya nail olmaq qabiliyyətin;**

**ÜK -9- Peşəkar məqsədlər üçün müvafiq məlumatı təhlil etmək, ümumiləşdirmək və tətbiq etmək bacarıqlarına;**

**ÜK-10- Peşəkar fəaliyyətini planlaşdırmaq və təşkil etmək, gələcək təhsilini və mövcud bacarıqlarını təkmilləşdirilmək, vaxtı idarə etmək və tapşırıqları vaxtında tamamlamaq qabiliyyəti;**

**Fənninin tədrisində tələbə aşağıdakı Peşə kompitensiyaları (PK) əldə etməlidir;**

- **PK-1- Bilik və bacarıqlarını inkişaf etdirmək məqsədilə vəziyyəti və özünü yenidən qiymətləndirmək və özünütənqid bacarığına;**
- **PK-2- multikulturalizmin mahiyyəti, onun yaranmasının səbəbləri, əhəmiyyəti haqqında bilik əldə etmək bacarığına;**
- **PK-3 müasir ictimai-fəlsəfi fikir tarixində olan tolerantlıq, multikulturalizm ideyaları ilə, eləcə də mültikulturalizmin nəzəri-ideoloji əsasları ilə tanış olmaq bacarığına;**
- **PK-4 dinin mahiyyəti, onun meydana gəlməsi, müasir dünyada dinin yeri və roluna dair nəzəriyyələrlə tanış olmaq bacarığına;**
- **PK-5 etnik-mədəni müxtəlifliyin qorunması və multikulturalizm siyasətinin səmərəliliyinin ölçülməsinin indikatorları ilə tanış olmaq bacarığına;**
- **PK-6 bir neçə Qərb ölkəsinin etnik-mədəni müxtəlifliyin tənzimlənməsi sahəsində apardığı təcrübə ilə tanış olmaq bacarığına;**
- **PK-7 əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən**

**uğurla həyata keçirilən multikulturalizm siyasətinin əsas istiqamətlərini, o cümlədən multikulturalizmin Azərbaycan modelinin mahiyyətini, xüsusiyyətlərini və nailiyyətlərini dərk etmək qabiliyyətinə;**

- **PK-8- İnnovativ təlim metodlarının tətbiqi, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin etməklə təhsilalanın formalaşdırılması, peşəkarlığının yüksəldilməsi bacarığına;**
- **PK -9 Yeni situasiyalara adaptasiya olunmaq, yeni ideyaları generasiya etmək qabiliyyətinə;**
- **PK-10 Problemli şəraitdə təşəbbüskarlıq göstərmək və məsuliyyəti öz üzərinə götürmək bacarığına.**

**<u>Fənnin təlim nəticələri:</u>**

**FTN-1 Multikulturalizmin əsas nəzəriyyəçiləri və konsepsiyalarının xüsusiyyətlərini təsvir edir;**

**FTN-2 Multikulturalizm, onun formalaşması və inkişaf mərhələləri, Qərb ölkələrində nəzəriyyəsi və təcrübəsi haqqında mülahizələrini izah edir;**

**FTN-3 Qərb ölkələrində və Azərbaycanda baş verən sosial-mədəni proseslərin mahiyyətini şərh edir;**

**FTN-4 "Mədəni müxtəliflik" problemləri ətrafında ideoloji və siyasi mübarizəni təhlil edir;**

**FTN-5 Çoxmillətli sosial-mədəni mühitdə müasir xarici təcrübədən istifadə edir;**

**FTN-6 Multikultural mühitdə münaqişələrin həll üsulları və iş bacarıqlarının praktik tətbiqi mexanizmlərini əsaslandırır .**

**Hər bir dərsdən əvvəl tələbə müəyyən edilmiş və tapşırılmış mətnlərlə tanış olmalı və təlim prosesində məzmuna uyğun olaraq lazımı biliklərə yiyələnməlidir.**

**Fənnin tədrisində istifadə olunan tədris metodları:**

***Bu tələblər aşağıdakı kimi müəyyən olunur:***

- ***Təqdimatın hazırlanması***
- ***Yazı işı***
- ***Tapşırıqlar***
- ***Layihələr***
- ***Qrup işləri***
- ***Kollokviumlar***
- ***İmtahan***

***Qaydalar (Tədris siyasəti və davranışı):***

- ***Davamiyyət.*** **Tələbənin fənn üzrə apa*rılmış auditoriya saatlarının iştirak etmək həddi vardır. Bu səbəbdən də müəllim tədris etdikləri fənlər üzrə tələbələrin dərslərə davamiyyətinin düzgün qeydiyyatına cavabdehdir. Bütün dərslərdə iştirak edən tələbə 10 bal qazanır. Auditoriya saatlarının 25% dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır!***

- ***Akademik plagiat. Plagiat (məsələn, yetərincə istinad verilmədən internetdən köçürmə), kollokviumlarda və ya imtahanda köçürmə***

***cəhdləri (köçürmə baş tutmasa belə!) və ya digər tələbə ilə müzakirə (kömək etmək və ya kömək almaq cəhdləri) tələbənin həmin fəndən çıxarılmasına (akademik kredit borcuna) səbəb olur. Belə halları görən müəllim fakültə rəhbərliyini dərhal xəbərdar etməlidir.***

*Auditoriyada etik davranış qaydaları:*

1. ***Dərsdə mövzudan kənar söhbətlər: dərsdə kənar söhbətlər tələbələrin fəal dinləmə və qavramasını çətinləşdirir. Başqalarına qarşı diqqətli olun, onların hüquqlarına və fərdi mövqelərinə hörmətlə yanaşın.***
2. ***Diqqətsizlik: Akademik dərs saatlarında tələbələrin müzakirələrə qoşulması gözlənildiyinə görə diqqətli olmaq tələb edilir. Bu tələbəyə tədris olunan materialı mənimsənilməsinə kömək edir. Dərs vaxtı elektron qurğulardan ancaq tədris məqsədləri üçün istifadə etmək olar. Mobil telefonlar dərs vaxtı söndürülməlidir.***
3. ***Tapşırıqlar siyasəti:***
4. ***Tapşırıqların verilməsi və qəbulu: Tapşırıqlar vaxtında tələbəyə təqdim olunmalı və nəzərdə tutulmuş müddətdə icra olunaraq, təhvil verilməlidir. Gecikdirilmiş tapşırıq qəbul edilməyəcək.***
5. ***Təqdimatlar: Mövzu üzrə təqdimatlar, layihələr, hesabatlar və digər tapşırıqlar akademik saat ərzində təqdim olunur.Onların qiymətləndirilməsi də dərs zamanı aparılır.***

- **Fənnin qısa məzmunu: Fənnin qısa məzmunu mühazirə, seminar (məşğələ) dərslərinin təqvim-tematik planı, tələbənin sərbəst işi üzrə təqvim-mövzu planını əhatə edir.**

## V. <u>Fənnin təqvim planı:</u>

*Mühazirə 15 saat. KRT 2401b-2402b; KRT 2403b-2404b.*

| Mövzunun adı və qısa icmalı | | Mühazirə- KRT 2401b-2402 | Mühazirə KRT 2403b-2404b | |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| | | b | | |
| *1-ci*1-ci mövzu: *Multikulturalizmə giriş fənninin predmeti və əhəmiyyəti*<br>**İcmal: "Multikulturalizm" terminin elmi ədəbiyyata daxil olmasının tarixi. Multikulturalizm Siyasətinin mahiyyəti, onun dünya miqyasında təbliğinin həyata keçirilməsinin səbəbləri. İrqi, dini, etnik və mədəni müxtəlifliklər multikulturalizmin tədqiqat obyekti kimi**<br>**Multikulturalizmin Azərbaycan Respublikasında, həmçinin dünyanın müxtəlif ölkələrində yaşayan milli azlıqların hüquq və azadlıqlarının qorunmasında rolu.**<br>**Multikulturalizmin Azərbaycan Respublikasında dövlət siyasəti kimi. Multikulturalizmin ictimai elmlərlə, o cümlədən fəlsəfə, politologiya, sosiologiya, kulturologiya, filologiya, dinşünaslıq və başqa elmlərlə qarşılıqlı əlaqəsi.Multikulturalizm Azərbaycan Respublikasının Dövlət siyasəti**<br>**Ədəbiyyat siyahısı:**<br>**Əsas:**<br>***1. Mutikulturalizmə giriş. Ali məktəblər üçün dərslik. Bakı, 2019***<br>***2. Azərbaycan multikulturalizmi.*** | | ***2 saat. 17.02.25.*** | ***2 saat. 28.02.25.*** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | *Dərslik, Bakı, 2017*<br>*3. Abdullayev K.M. Azərbaycanın müstəqilliyi illərində multikulturalizm və tolerantlıq. Bakı, 2016*<br>*4. mühazirə mətnləri.* | | | | |
| **2-** | **2-ci mövzu: Dini müxtəliflik. Dinin mahiyyəti və onun təzahür formaları.**<br>**İcmal: Dinin mahiyyəti və onun meydana gəlməsinə dair nəzəriyyələr. Din fərdi dünyagörüşün və ictimai şüurun formalarından biri kimi.**<br>**Müasir dövrdə din. Müasir dünyada dinin yeri və roluna dair nəzəriyyələr. Yeni dini hərakatlar. (Bəhailik Yehovanın şahidləri, munçuluq, Beynəlxalq krişina cəmiyyəti, Yeddinci günün adventiləri.)**<br>**Dini radikalizm və ekstermizm, onlara qarşı mübarizə yolları.**<br>**Müasir dövrdə Azərbaycanda dövlət din münasibətləri.**<br>**Ədəbiyyat siyahısı:**<br>**Əsas:**<br>***1. Mutikulturalizmə giriş. Ali məktəblər üçün dərslik. Bakı, 2019***<br>***Azərbaycan multikulturalizmi. Dərslik, Bakı, 2017*** | | ***2 saat. 03.03.25.*** | ***2 saat. 14.03.25.*** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | *2. Abdullayev K.M. Azərbaycanın müstəqilliyi illərində multikulturalizm və tolerantlıq. Bakı, 2016*<br>*3.Mühazirə mətni* | | | | |
| *3-* | **3-cü mövzu :Dünya dinləri.**<br>**İcmal:Buddizmin e.ə.I minillikdə Şimali Hindistanda meydana gəlməsi. Buddizm dininin banisi. Qautama haqqında əfsanə. Buddizmin təbliğində monastırların rolu. Buddizmində Hanayana və Mahayana cərəyanlarının yaranması. XII-XV əsrlərdə Tibetdə və Monqolustanda Lamaizmin meydana gəlməsi. Buddizmdə mədəniyyət nümunələri və müqəddəs sayılan yerlərə sitayiş.**<br>**Xristianlığın meydana gəlməsi. İsa peyğəmbərin Allah-insan kimi təqdim olunması. Xristianlığın Romada və Alba-niyada (Ağvaniya) dövlət dininə çevrilməsi. Xristianlığın provaslavlığa, katolizmə və protestantizmə** | | *2 saat. 17.03.25.* | *2 saat. 28.03.25.* | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | **çevrilməsinin səbəbləri. Xristianlıqda kilsələrin meydana gəlməsinin tarixi şəraiti. 325-ci ildə Nikeyədə ilk kilsə məclisinin yaradıl-ması. Roma Vatikan kilsəsi, onun ictimai və siyasi fəaliyyəti.**<br>**İslam dininin meydana gəlməsində ictimai, iqtisadi və siyasi səbəblərin rolu. Məhəmməd Peyğəmbərin Mədinəyə (Yəğribə) gəlməsinin səbəbləri. Xilafətin yranması. İslam dininin dünya dininə çevrilməsində Xilafətin rolu. İslamda tək Allaha inam. Quranın yaranmasında Xəlifə Osmanın və Zeyd İbn Sabitin tarixi xidmətləri. İslamın əsas ehkamları:**<br>**1.Kəlmeyi Şəhadət; 2. Namaz qılmaq; 3. Oruc tutmaq, 4. Zəkat vermək; 5. Həccə getmək**<br><br>**Ədəbiyyat siyahısı**<br>**Əsas:**<br>***1. Mutikulturalizmə giriş. Ali məktəblər üçün dərslik. Bakı, 2019*** | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | *Azərbaycan multikulturalizmi. Dərslik, Bakı, 2017*<br>*2. Məmmədov R. Zərdüştlükdə insan hüquqları məsələsi.Bakı, 2016*<br>*4.Mühazirə mətni.* | | | | |
| **4-** | **4-cü mövzu:** ***Milli dinlər.***<br>**İcmal: Yaxın Şərq dinləri. Zərdüştilik. Tarixi. Dini təlimin əsasları. Dini mətnlər. Dini ayin və mərasimlər. Azərbaycanda Zərdüştilik. Yəhudilik. Tarixi. Dini təlimin əsasları. Dini mətnləri. Dini ayin və mərasimlər. Azərbaycanda Yəhudilik.**<br>**Uzaq Şərq dinləri. Konfutsiçilik. Daosizm.Sintoizm.**<br>**Cənubi Asiya dinləri. Hinduizm.Caynizm.Siqhizm.**<br>**Qdim türk inacları.**<br>**Ədəbiyyat siyahısı**<br>*1. Mutikulturalizmə giriş. Ali məktəblər üçün dərslik. Bakı, 2019*<br>*2. Azərbaycan multikulturalizmi. Dərslik, Bakı, 2017*<br>*3. Mehdiyev R.Ə. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modelləşdirmə xətti. Bakı, 2008* | | ***2 saat. 31.03.25.*** | ***2 saat. 04.04.25.*** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | *4. Mühazirə mətni* | | | | |
| **5-** | **5-ci mövzu:** ***Etnik müxtəliflik və milli ideya.*** **İcmal: Azərbaycanda polietnik təkamül və onun tolerantlıq ənənələri. Dini, irqi, milli və etnik dəyərlərin müxtəlifliyi və onların mədəniyyətin struktur elementləri sistemində yeri. Demokratik cəmiyyətin qurulmasında dini, etnik, milli müxtəlifliyin qurulmasında dini, etnik, milli, müxtəlifliyin qorunmasının əhəmiyyəti. Azərbaycanda dini durumun sabitliyinin qorunması istiqamətində həyata keçirilən işlər. Dinlərarası qarşılıqlı anlaşma və bir-birinə hörmət prinsiplərinin qorunub saxlanması. Dini icmaların fəaliyyətinə göstərilən dövlət qayğısı** **Ədəbiyyat siyahısı** **Əsas:** ***1.Mutikulturalizmə giriş.Ali məktəblər*** | | ***2 saat. 14.04.25*** | ***2 saat. 25.04.25.*** | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | *üçündərslik.Bakı, 2019*<br>*2. Azərbaycan multikulturalizmi. Dərslik, Bakı, 2017*<br>*3.Mühazirə mətni* | | | | | |
| *6-* | **6-cı mövzu: Multikulturalizim etnik- mədəni müxtəlifliyin tənzimlənməsinin səmərəli siyasət modeli kimi.**<br>**İcmal: Etnik- mədəni müxtəlifliyin tənzimlənməsinə münasibətdə mümkün siyasət modelləri: assimilyasiya, izolyasiya, aparteid və multikulturalizm siyasəti.**<br>**Müasir dövrdə ictimai inkişafda mədəniyyətin aparıcı rolu və interkulturalizm.**<br>**Multikulturalizm daxili və xarici siyasətin tərkib hissəsi kimi . Multikultural təhlükəsizlik. Davamlı və inklüziv inkişafın əldə olunmasında multikulturalizm siyasətinin rolu.**<br>**Etnik- mədəni müxtəlifliyin qorunması və multikulturalizm siyasətinin ölçülməsi. Azlıqda olan yerli xalqlar üzrə** | | | ***2 saat. 28.04.25.*** | ***2 saat. 09.05.25.*** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | **multikulturalizm siyasəti indeksi. Alloxton azlıqlar üzrə multikulturalizm siyasəti.**<br><br>**Ədəbiyyat siyahısı**<br>**Əsas:**<br>***1. .Mutikulturalizməgiriş.Ali məktəblər üçündərslik.Bakı, 2019***<br>***2.Azərbaycan multikulturalizmi. Dərslik, Bakı, 2017***<br>**3..Mühazirə mətni** | | | | |
| *7-* | **7-ci mövzu: Müasir dövrdə Qərb ölkələrində etnik-mədəni müxtəliflik və onun tənzimlənməsi.**<br>**İcmal: Müasir Qərb ölkələrində multikulturalizmin vəziyyəti. Qərb ölkələrində etnik-mədəni müxtəlifliyin yaranmasında və atrmasında immiqrasya prosesinin rolu.**<br>**Qərb ölkələrində dözümlüyün, ksenofobiyanın və ayrıseçkiliyin geniş yayılmış formaları: islamfobiya və antisemitizm.**<br>**Qərb ölkələrində (Kanada, Avstraliya ,ABŞ, Böyük Britaniya, Hollandiya,** | | ***2 saat. 12.05.25.*** | ***2 saat. 23.05.25.*** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | **Almaniya, İspaniya, İtaliya ) etnik- mədəni müxtəlifliyin tənzimlənməsi təcrübəsinin öyrənilməsi.**<br>**Müasir dövrdə multikulturalizm və tolerantlığa dair beynəlxalq sənədlər.**<br>**Ədəbiyyat siyahısı**<br>**1 *Mutikulturalizmə giriş. Ali məktəblər üçün dərslik. Bakı, 2019***<br>**2. Azərbaycan multikulturalizmi. Dərslik, Bakı, 2017**<br>***3.Mühazirə mətnləri***<br><br>***1.*** | | | | |
| ***8-*** | **8-ci mövzu: Müasir dövrdə Azərbaycanda multikulturalizm.**<br>**İcmal: Azərbaycanda multikulturalizm siyasəti modelinin formalaşmasını şərtləndirən obyektiv və subyektiv səbəblər. Azərbaycan multikulturalizminin əsas xüsusiyyətləri. Multikulturalizm siyasətinin həyata keçirilməsində Azərbaycan Respublikasının beynəlxalq təşkilatlarla əməkdaşlığının öyrənilməsi.**<br>**Ədəbiyyat siyahısı** | **.** | ***2 saat. 26.05.25.*** | ***2 saat. 29.05.25.*** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | **Əsas:**<br>1. ***Mutikulturalizmə giriş. Ali məktəblər üçün dərslik. Bakı, 2019***<br>2. ***Azərbaycan multikulturalizmi. Dərslik, Bakı, 2017***<br>***3.Mühazirə mətnləri*** | | | | |

**VI. Tələbənin müstəqil işi üçün tapşırıqlar**

**Semestr ərzində _ sərbəst iş tapşırığı verilir, hər tapşırığın yerinə yetirilməsi _ balla qiymətləndirilir. Sərbəst işin mövzuları - qiymətləndirmə üsulu şifahi sorğu olduqda- əlyazma (referat), təqdimat olduqda isə Power Point təqdimatı formasında təhvil verilməlidir.**

**Sərbəst iş tələbənin fərdi fikirlərinin nəticəsi olduğundan plagiat yolverilməzdir.**

**Tələbənin sərbəst işinin növü və forması (fərdi, komanda, qrup tapşırığı və s.) fənni tədris edən müəllim tərəfindən müəyyən edilir.**

| **№** | **Sərbəst işin mövzusu** | **Sərbəst işin təhvil verilməsinin son tarixi** | **Qiymətləndirmə üsulu** |
|---|---|---|---|
| **1.** | **Müasir dövrdə Azərbaycanda multikulturalizm.** | **07.04.2025** | |
| **2.** | **Dünya dinləri.** | **07.04.2025** | |
| **3.** | **Milli dinlər.** | **15.04.2025** | |
| **4.** | **Etnik müxtəliflik və multikulturalizm.** | **15.04.2025** | |
| **5.** | **Azərbaycan Respublikasında dövlət-din münasibətləri və multikulturalizm milli təhlükəsizlik konsepsiyası kimi** | **22.04.2025** | |
| **6.** | ***Azərbaycanda xristian dinin yayılması.*** | **22.04.2025** | |
| **7.** | ***Müasir Azərbaycanda multikulturalizm və tolerantlıq siyasəti.*** | **29.04.2025** | |
| **8.** | ***Etnik milli müxtəliflik multikulturalizm siyasəti.*** | **29.04.2025** | |
| **9** | ***Azərbaycanda islamın yayılması və islamda tolerantlıq;*** | **07.05.2025** | |
| **10** | ***Dini ekstermizmə qarşı mübarizəsi;*** | **07.05.2025** | |

**VII. <u>İmtahanın keçirilməsi forması</u> - yazılı**

**VIII. <u>Semestr ərzində qiymətləndirmə və bal bölgüsü:</u>**

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin 11.09.2008-ci il tarixli 1060 nömrəli əmri ilə təsdiq edilmiş "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə"sini tələbləri əsas götürülərək.**

**Balların maksimum miqdarı – 100 bal.**

***A)<u>Semestr ərzində toplanan maksimum bal</u>* – 50 bal.**

| | |
|---|---|
| **Dərsə davamiyyətə görə** | **10 bal** |
| **Tələbələrin sərbəst işinə (referat, prezentasiya, tədqiqat işi və s.) görə**<br>**Qeyd: Plagiat halları qəti qadağandır! Sərbəst işlə əlaqədar bütün tapşırıqların adı, təqdim olunma şərtləri, vaxtı və qiymətləndirmə üsulu cədvəldə göstərilmişdir.** | **10 bal** |
| **Seminar (məşğələ) nəticələrinə görə** | **30 bal** |

- ***10 bal - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;***
- ***9 bal - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu aça bilir;***
- ***8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;***
- ***7 bal - tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;***
- ***6 bal - tələbənin cavabı əsasən düzgündür;***
- ***5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;***
- ***4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;***
- ***3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandırmağı bacarmır;***
- ***1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;***
- ***0 bal - suala cavab yoxdur.***

***B) Semestr imtahanı nəticəsinə görə* - maksimum 50 bal**

**Hər biletdə – 5 sual, hər suala – 10 bal verilir.**

**<u>Qeyd:</u> *Tələbənin imtahandan topladığı balın miqdarı 17-dən az olmamalıdır.***

***C)Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana qədər toplanan ballar əsasında):***

| | | |
|---|---|---|
| **91 – 100 bal** | **əla** | **A** |
| **81 – 90 bal** | **çox yaxşı** | **B** |
| **71 – 80 bal** | **yaxşı** | **C** |
| **61 – 70 bal** | **kafi** | **D** |

| | | |
|---|---|---|
| **51 – 60 bal** | **qənaətbəxş** | **E** |
| **51 - baldan aşağı** | **qeyri-kafi** | **F** |

**XI. İmtahan sualları:**

1. **"Multikulturalizmə giriş" fənninin predmeti və əhəmiyyəti**
2. **Din fərdi dünyagörüşün və ictimai şüurun forması kimi.**
3. **Tolerantlıq və onun tipləri.**
4. **Multikulturalizmə giriş fənninin digər elmlərlə əlaqəsi.**
5. **İslam dinin meydana gəlməsi və yayılması.**
6. **Azərbaycanda Zərdüştilik.**
7. **Azərbaycanda xristianlığın meydana gəlməsi.**
8. **Dini radikalizm və ona qarşı mübarizə.**
9. **Müasir dövrdə Azərbaycanda dövlət-din münasibətləri.**
10. **Multikulturalizm sosial hadisə, siyasət modeli və həyat tərzi kimi.**
11. **İslam dinində məzhəblər.**
12. **Xristian dinində məzhəblər.**
13. **Buddizm dinin meydana gəlməsi və yayılması.**
14. **Multikulturalizmin zəif və güclü formaları.**
15. **Assimilyasiya, izolyasiya, aparteid və multikulturalizm.**
16. **Azərbaycançılıq ideologiyasının əsasları.**
17. **Multikulturalizmin Azərbaycan modeli.**
18. **Dini ekstermizm və ona qarşı mübarizə.**
19. **Azərbaycanda Yəhudilik.**
20. **Heydər Əliyev müasir Azərbaycan Respublikasında multikulturalizm siyasətinin banisi kimi.**
21. **Heydər Əliyev və azərbaycançılıq ideologiyası.**
22. **Azərbaycanda multikulturalizmin meydana gəlməsinin obyektiv və subyektiv səbəbləri.**
23. **Kanadada etnik- mədəni müxtəlifliyin tənzimlənməsi təcrübəsi..**
24. **Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyəti.**
25. **ABŞ-da etnik- mədəni müxtəlifliyin tənzimlənməsi təcrübəsi..**
26. **Qədim türk inancları.**
27. **İngiltərədə etnik- mədəni müxtəlifliyin tənzimlənməsi təcrübəsi.**
28. **Azərbaycançılıq ideologiyası və multikuturalizm.**
29. **Multikulturalizm və gender.**
30. **Azərbaycanda islamın yayılması və islamda tolerantlıq.**
31. **Tolerantlıq, multikulturalizm və interkulturalizm.**
32. **Multikulturalizm daxili və xarici siyasətin tərkib hissəsi kimi.**
33. **Qərb ölkələrində dözümsüzlüyün və ayrıseçkiliyin geniş yayılmış formaları: ksenofobiya, islamafobiya və antisemitizm.**
34. **Xristian dinin meydana gəlməsi və yayılması.**
35. **Dinin siyasiləşdirilməsinin dinlər və millətlərarası münasibətlərə radikal təsiri.**

**36.Multikulturalizmə giriş fənninin funksiyaları.**
**37.İlham Əliyev müasir dövrdə Azərbaycan multikulturalizmin qarantıdır.**
**38.Multikultural təhlükəsizliyin təmin edilməsi.**
**39.Milli azlıq, azsaylı xalq xalq və etnik qruplrın hüquq və azadlıqların qorunması istiqamətində multikulturalizm siyasəti.**
**40.Multikulturalizm və media.**

**Müəllim:** ________________________________
**(soyadı, adı, atasının adı)**

**İmza:** ________________________________

**Tarix:** **12 fevral 2025-ci il.**